Azərbaycan dili və ədəbiyyat tədrisi
2026 / Cild 72, Nömrə 3 / 120–126
https://doi.org/10.48445/x7827-6703-9344-h

İsi Məlikzadə nəsrində xarakter problemi

Aynur Bədəlova [1]

XÜLASƏ
Məqalədə İsi Məlikzadənin nəsrində xarakter problemi araşdırılmış, povest və hekayələrindəki qəhrəmanlar idealizə edilmədən bütün müsbət və mənfi xüsusiyyətləri ilə oxucuya təqdim edilmişdir. Yazıçının nəsrində əsas cəhətlərdən biri onun obrazları canlı, təbii və realist dildə təsvir etməsidir. Onun bədii üslubu qəhrəmanların daxili aləmini, psixoloji mürəkkəbliyini açıq şəkildə əks etdirməyə imkan verir. İsi Məlikzadənin povestlərində dil və dialoq vasitəsilə yaradılan realizm onun qəhrəmanlarının daxili aləminin inandırıcı təsvirinə imkan yaradır. Onun əsərləri, zəngin psixoloji təhlili və mənəvi çalarları ilə Azərbaycan nəsrində xarakter problematikasını aydın şəkildə ortaya qoyur və oxucunu hər zaman düşündürür.

AÇAR SÖZLƏR
daxili ziddiyyət, xarakter problemi, mənəvi keyfiyyət, fərdi psixologiya

MƏQALƏ TARİXÇƏSİ
Göndərilib: 10.04.2026
Qəbul edilib: 28.08.2026

[1]Müəllim, Azərbaycan Dövlət Pedaqoji Universiteti. Azərbaycan
https://orcid.org/0009-0002-9288-6218 | badalovaaynurrr@gmail.com

 Creative Commons Attribution-NonCommercial 4.0 International License (CC BY-NC 4.0)

Teaching of Azerbaijani Language and Literature
2026 / Volume 72, Number 3 / 120–126
https://doi.org/10.48445/x7827-6703-9344-h

The Problem of Character in Isi Malikzadeh's Prose

Aynur Badalova [1]

ABSTRACT
The article examines the problem of character in the prose of Isi Malikzadeh. In the writer's narratives and stories, the heroes are not idealized, they are presented to the reader with all their positive and negative characteristics in the flow of living life. One of the main features of the writer's prose is his description of the characters in a lively, natural and realistic language. The writer's artistic style allows for a clear reflection of the inner world and psychological complexity of the heroes. The realism created through language and dialogue in Isi Malikzadeh's narratives allows for a convincing description of the inner world of his heroes. His works, with their rich psychological analysis and moral shades, clearly reveal the problematic of character in Azerbaijani prose and always make the reader think.

KEYWORDS
internal contradiction, character's problem, moral quality, individual psychology

ARTICLE HISTORY
Received: 10.04.2026
Accepted: 28.08.2026

[1]Teacher, Azerbaijan State Pedagogical University. Azerbaijan
https://orcid.org/0009-0002-9288-6218 | badalovaaynurrr@gmail.com

Creative Commons Attribution-NonCommercial 4.0 International License (CC BY-NC 4.0)

Giriş

1960–1980-ci illər Azərbaycan nəsrinin dövrün sosial və mədəni dəyişiklikləri fonunda insanın mürəkkəb xarakterini və onun psixoloji portretinin bədii təcəssümünü ön plana çəkən bir tarixə təsadüf edir. Bu illərdə Azərbaycan ədəbiyyatında qəhrəmanların daxili dünyası, mənəvi və emosional ziddiyyətləri təfərrüatlarla təsvir edilir. Yazıçılar fərdi və ictimai problemləri paralel təqdim etməklə yaratdıqları obrazı həyat gerçəklikləri ilə səsləşən bədii müstəvidə təsvir edirlər. Həmin dövrün nümayəndələrindən biri görkəmli yazıçımız İsi Məlikzadədir. İ. Yaqub yazıçı haqqında qeyd edir: *"Koloritli, məzmunlu və müasir ruhlu əsərləri əxlaqi-tərbiyəvi mahiyyəti, ictimai-estetik ləyaqəti, təsvir və təhkiyə dilinin yüksək sadəliyi ilə seçilir, oxunur və sevilir"* (İsmayılov, 2007).

Həqiqətən, İsi Məlikzadə söz sərrafı kimi obraz və xarakter aləmini, mövzu seçimini və dil ustalığını yüksək səviyyədə birləşdirir, oxucuya həm estetik, həm də mənəvi zövq və həyat təcrübəsi təqdim edir. Əli Rza Xələfli ustad haqqında öz fikirlərini belə ifadə edir: *"İsi Məlikzadə nəinki Azərbaycanın, həm də dünyanın maraqlı, oxuna bilən ziyalılarından və yazıçılarındandır"* (Aslanoğlu, 2013). Yazıçının qəhrəmanları hər zaman mübariz və ideallaşdırılmış şəxsiyyətlər deyil, əksinə, həyatın sadə, lakin mürəkkəb təzadlarını öz daxilində daşıyan obrazlardır. Onun personajları daha çox gündəlik həyatın axarında formalaşan, daxili ziddiyyətləri və psixoloji tərəddüdləri ilə seçilən adi insanlardır. "Evin kişisi"ndə Qaçay, "Gümüşgöl əfsanəsi"ndə Orxan, "Quyu"da Umud, "Dədə palıd"da Nurcabbar kimi obrazlar fəal mübarizlik və qələbə iddiasından uzaq obrazlar kimi təqdim olunur. Vaqif Yusifli qeyd edir: *"Yalnız hekayə və povestlərindən tanıdığım və sevdiyim İsi Məlikzadə ilə ünsiyyətim məndə belə bir fikir yaratdı ki, İsi Məlikzadə ilə onun təsvir etdiyi qəhrəmanlar arasında güclü doğmalıq var. Sanki o, öz ömrünün ayrı-ayrı aylarını, illərini obrazlarına paylayıb. İsi bütün əsərlərində özünü yaradıb. Ancaq eyni zamanda, o, qəhrəmanların hər biri də öz ömrünü yaşayıb*" (Yusifli, 2024).

Həqiqətən, yazıçının bədii təxəyyülü ilə şəxsi həyat təcrübəsi arasında üzvi bir bağlılıq mövcuddur. Sanki müəllifin daxili mənəvi təcrübəsi ilə qəhrəmanların fərdi həyat yolu arasında tarazlıq yaranır, bu isə obrazların təbii, canlı və inandırıcı görünməsini təmin edir. Yazıçı qəhrəmanlarını olduğu kimi – həyatın içindən seçir. Bu baxımdan, onun nəsrində xarakter problemi həm də sosial və əxlaqi kontekslə bağlıdır.

Metodlar

Məqalənin yazılmasında bir sıra elmi-metodoloji yanaşmalar tətbiq edir. Tədqiqatın aparılmasında sistemli təhlil və şərh metodlarından, həmçinin, müxtəlif mənbələrin toplanması və təhlili məqsədilə yazıçının yaradıcılığına və şəxsiyyətinə yanaşma, əsərlərində obrazların xarakter xüsusiyyətlərinin ümumiləşdirilməsi üçün ümumiləşdirmə metodlarından istifadə edilmişdir. İsi Məlikzadənin nəsrində dilin, dialoqun və üslubun

xüsusiyyətlərini araşdırarkən müqayisəli metoda müraciət edilmişdir. Ümumilikdə, araşdırmada analiz, sintez, induksiya, deduksiya və ümumiləşdirmə kimi ümummənti metodlardan da istifadə olunmuşdur. Bu metodlar vasitəsilə İsi Məlikzadənin nəsrində xarakter problemi, qəhrəmanların psixoloji mürəkkəbliyi sistemli və elmi əsaslarla təhlil edilmiş, onun Azərbaycan ədəbiyyatında tutduğu yer müəyyənləşdirilmişdir.

Nəticələr

Araşdırma və aparılmış təhlillər nəticəsində İsi Məlikzadənin nəsrində xarakter probleminin tədqiqi bir sıra mühüm nəticələrə gətirib çıxarmışdır. Məqalədə yazıçının povest və hekayələrində xarakter inkişafının sosial, mənəvi və psixoloji kontekstlə əlaqəsi göstərilmişdir. Eyni zamanda, dialoq və dil vasitəsilə obrazların daxili dünyası əks etdirilmiş, xalq danışıq dili ilə ədəbi dilin sintezi yaradılmışdır. Məqalədə əldə olunan nəticələr Azərbaycan nəsri, xüsusilə 1960–80-ci illər realist hekayə və povestlərinin təhlili və xarakter problemlərinin öyrənilməsi üçün nəzəri və praktik mənbə kimi istifadə oluna bilər. Həmçinin, nəticələr ali məktəblərin seminar məşğələlərində, kurs işləri və elmi tədqiqatlarda, eləcə də tədris prosesi üçün dərslik və vəsaitlərin hazırlanmasında tətbiq edilə bilər.

Müzakirə

"İsi Məlikzadə ədəbiyyatda heç kimə bənzəməyən, özünəməxsus fərdi yaradıcılıq qabiliyyəti, üslubu ilə xalqın yaddaşından silinməyən bir sənətkardır" (Məlikzadə, 2024). Yazıçı yaratdığı obrazları həyatın axarı və qarşılaşdıqları vəziyyətlər fonunda açır. Onun qəhrəmanları adi, sadə insanlar olsa da, mürəkkəb daxili dünyaya, ziddiyyətli düşüncəyə malikdirlər. Xarakterlərin formalaşmasında sosial mühit, ailə münasibətləri mühüm rol oynayır. Yazıçı üçün xarakter mənəvi dəyərlərin daşıyıcısıdır. Bəkir Nəbiyev qeyd edir: *"Az sözlə, kiçik bir epizodla səciyyəvi həyat hadisəsini canlandırmaq, insan xarakterinin və probleminin aydın cizgilərini çəkmək İsi Məlikzadənin yaradıcılığına xas olan xüsusiyyətdir*" (Köçərli, 2024, s. 6). Doğrudan da İsi Məlikzadə nəsrində geniş təsvirə, süni detallara ehtiyac duyulmur. Yazıçı qısa, lakin məna baxımından dolğun epizodlar vasitəsilə həm insan taleyini, həm də dövrün sosial-psixoloji problemlərini ümumiləşdirilmiş şəkildə təqdim edir. Onun əsərlərində insanın daxili aləmi və xarakterinin psixoloji qatları ön plana çəkilir ki, bu da yaradıcılığın əsas bədii dəyərini müəyyənləşdirir. Yazıçı qəhrəmanlarını psixoloji gərginliyin ən yüksək nöqtəsinə gətirərək onları əxlaq, vicdan, məsuliyyət, ləyaqət kimi keyfiyyətlər qarşısında seçim etməyə, əsl mahiyyəti üzə çıxarmağa çalışır. Bu vəziyyətlər çox vaxt zahirən sadə hadisələr üzərində qurulsa da, dərin mənəvi konfliktlər doğurur. Yazıçı "Duz" hekayəsində şəhərdə təhsil alan, maddi çətinliklər ilə üzləşən tələbə obrazı yaradır. Seymur ilk baxışdan öz qərarlarını verə bilən qürurlu gənc kimi görünsə də,

daxilən maddi imkansızlıqdan sıxılır, mənəvi cəhətdən sarsılır. Yazıçı hekayədən yaratdığı obrazı zəif və ya sadə göstərməyə çalışmır, əksinə, onu formalaşdıran sosial mühitin təsirini ifadə edir: *"Firuzə sanki oğlunun titrəyən barmaqlarını görməmək üçün üzünü döndərdi. Baxışları həsir zənbilin üstündə dolandı:*

– Maşın küçədə səni gözləyir.

Seymur qırmızı onluqları ovcunda sıxıb yumruladı:

– Otuz manatla hara gedim?

Firuzə istədi oğlunun hirsini dağıtsın, könlünü alsın. Gülümsədi. Və tez də peşman oldu; anladı ki, bu təbəssüm Seymurun olan-qalan səbrini çalxaladı, daşdırdı" (Məlikzadə, 2005, s. 280). Yazıçı burada obrazın keçirdiyi daxili narahatlığı və mənəvi sarsıntını onun davranışları vasitəsilə ifadə edir. Ananın qayğısı və nigaranlığı müəllifin dili ilə aydın şəkildə təsvir edilir. Burada maddi çətinliklər gəncin hiss etdiyi acizliyi vurğulayır. Hekayədə valideynlərin mövqeyi aydındır, atanın bütün günü çalışmasına baxmayaraq qazancı məhduddur və bu vəziyyət həm gəncin, həm də valideynlərin qarşılaşdığı real problemləri oxucuya açıq şəkildə çatdırır. Müəllifin nəsrində xarici konfliktlərdən daha çox daxili toqquşmalar aparıcı rol oynayır. Qəhrəman öz vicdanı ilə, keçmişi ilə, mühit və cəmiyyətin qanunları ilə üz-üzə qalır. Bu daxili mübarizə xarakterin bütövlüyünü, mənəvi qarşıdurmasını nümayiş etdirir. Beləliklə, İsi Məlikzadə xarakteri psixoloji cəhətdən xarakterizə edərək oxucunu düşünməyə sövq edir. Yazıçının nəsrində obrazlar müəyyən mühitdə formalaşsa da, onlar heç vaxt sıradan bir xarakter daşımır. Yazıçı obrazlarını müxtəlif vəziyyətlərdə sınayaraq hər bir obrazı fərdi cizgilərlə zənginləşdirir. İ.Məlikzadənin qəhrəmanları çox vaxt cəmiyyətin laqeydliyi, mənəvi aşınması fonunda öz daxili ləyaqətini qorumağa çalışan insanlardır. Onlar böyük xəyallarla yaşamır, lakin gündəlik həyatın çətin sınaqlarında mənəvi mövqelərindən də imtina etmlərir. Düzgün qeyd edilmişdir ki: *"İsi Məlikzadə Azərbaycan povestinin psixoloji çalarlarını da xeyli dərəcədə irəlilədə bildi. Onun bir çox povestlərində ("Yaşıl gecə", "Dədə palıd") qəhrəmanların zahiri hərəkətlərindən daha çox, daxili-ruhi aləmi, düşüncələri qabarıq nəzərə çarpır. Doğrudan da, bu obrazlar sanki düşünmək, fikirləşmək (bəzən bu düşüncələr səmərə verməsə də) üçün dünyaya gəliblər"* (Yusifli, 2021, s. 24). Ədibin yaradıcılığında xarakterlərin milli düşüncə tərzi ilə üzvi bağlılığı xüsusi diqqət çəkir. Yazıçının obrazları yaşadıqları torpaqla, məkanla və milli-mənəvi dəyərlərlə sıx əlaqədə təqdim olunur. Təbiət, kənd və şəhər mühitinin təsviri xarakterlərin daxili dünyasını tamamlayan mühüm bədii vasitəyə çevrilir. Bu kontekstdə xarakter kollektiv yaddaşın, tarixi təcrübənin ifadəçisidir. Yazıçının yaratdığı obrazların davranış və düşüncələrində milli dəyərlərin izləri açıq şəkildə hiss olunur. "Evin kişisi" povestindəki Qaçay obrazı İsi Məlikzadə nəsrində xarakter probleminin açıq şəkildə üzə çıxdığı nümunələrdən biridir. Qaçay zahirən ailənin və evin "kişisi" sayılsa da, sadəlövh düşüncə tərzinə və zəif xarakterinə görə nə ailədə, nə də cəmiyyətdə real mənada özünə yer tapmır, məsuliyyət daşımır. Hekayədə yazıçı xarakteri

zəif obraz kimi təqdim etmir, onu formalaşdıran sosial mühitin təsirini açıq şəkildə göstərməyə çalışır. S. Fərəcov qeyd edir: *"Müəllif əsərdə Qaçayın həyatını təsvir edir. Ancaq Qaçay öz davranışı ilə sovet milisinin səlahiyyətlərini inandırıcı şəkildə əks etdirmir. Çünki o, arzu ediləcək qəhrəman səviyyəsində olmur. Hətta avam və sadəlövh düşüncə tərzi ilə gülüş doğurur. Rəis Qaçayı istehza ilə "Koroğlu" deyə, çağırır. Ancaq Qaçay nəinki Koroğlu, heç Keçəl Həmzə qədər də olmur*" *(*Fərəcov, 2024). Qaçayın xarakterindəki tərəddüd onun fərdi keyfiyyəti olmaqla yanaşı, eyni zamanda cəmiyyətin insan üzərində yaratdığı mənəvi basqıların nəticəsidir. Bu obraz vasitəsilə İsi Məlikzadə daxili ziddiyyətlərlə qərarsızca yaşayan inandırıcı bir xarakter formalaşdırır.

İsi Məlikzadə xarakter ustası kimi, hər bir povestində obrazların mənəvi və psixoloji dərinliyini vurğulayır. Vaqif Yusifli qeyd edir: *""Quyu"da İ. Məlikzadə yetmişinci illər Azərbaycan kəndinin mənəvi – əxlaqi mənzərəsini əks etdirirdi. Əlbəttə, demək olmaz ki, bu mənzərə tam və bütöv idi, amma tam və bütöv olmasa da, real idi, inandırıcı idi, yalan deyildi. İsinin təsvir etdiyi insanlar – Umud, Məcid kişi, kolxoz sədri Xalıq, onun arvadı Əsli, qızı Solmaz, qoca anası və bu ailəyə məhrəm olan Piri bir obraz kimi son dərəcə təbii idilər – bütün müsbət insani keyfiyyətləri və qüsurları ilə birgə"* (Yusifli, 2013, s. 3). Həqiqətən, povestdə obrazlar son dərəcə təbiidir. Xüsusilə, Umud obrazı xarakter probleminin nümunəsidir. O, mübariz deyil, lakin daxilindəki saflıq və mənəvi təmizlik onu mühüm qərarlar verməyə sövq edir. Yazıçı göstərir ki, xarakterin mürəkkəbliyi hərəkətdə deyil, həm də daxili psixoloji təzadlarda özünü göstərir. Nəriman Fərman qeyd edir: *"İsi Məlikzadə öz qəhrəmanlarını əsərlərində elə şəkildə təsvir edir ki, oxucunun həyatda belə adamların həqiqətən də olmasına şəkk-şübhəsi qalmır. Çünki yazıçı həmin qəhrəmanların həm daxili aləmini, xarakterini bir psixoloq kimi açır, həm də zahiri görkəmlərini peşəkar bir rəssam kimi təsvir edir"* (Fərman, 2024, s. 44). İsi Məlikzadənin nəsrində xarakterin inkişafı və davranışın psixoloji tərəfləri bədii təhkiyənin mərkəzində dayanır. Məsələn, "Dədə palıd" povestində Nurcabbarın təbiətə sevgisi, insanların təbiətə qəsd etməsinə qarşı münasibəti göstərir ki, xarakter yalnız sosial münasibətlərlə formalaşmır, eyni zamanda ekoloji və mənəvi kontekstlə ifadə edilir. Povestdəki belə detallar İsi Məlikzadənin realist sənətkarlığının göstəricisidir. Bundan başqa, İsi Məlikzadə nəsrində dialoq və dil vasitəsilə xarakteri canlandırma xüsusiyyəti qabarıqdır. Düzgün qeyd edilmişdir ki: *"Yazıçının dili, üslubu da doğulub-böyüdüyü Ağcabədi torpağının, Aran Qarabağın stixiyasından yoğrulub. Bu üslub sanki uca dağlardan enib gəlmiş yorğun Kürün aran düzlərində ağır-ağır, fikirli-fikirli, həm də arxayın-arxayın axışından yaranıb"* (Yusifli, 2024, s. 13). Onun povestlərində xalq danışıq dili ədəbi dil ilə harmonik şəkildə əks olunur. Bu, həm obrazın psixoloji realizmini gücləndirir, həm də oxucu üçün təbii və inandırıcı təsir yaradır.

Nəticə

Nəticə etibarilə, İsi Məlikzadənin yaradıcılığında xarakter problemi mübariz və ideallaşdırılmış qəhrəmandan uzaq, həyatın içindən seçilmiş realist obrazlar vasitəsilə öyrənilir. Onun povestlərində hər bir xarakter həm fərdi psixologiyası, həm sosial yeri, həm də mənəvi keyfiyyətləri ilə ön plana keçir. Yazıçının nəsri Azərbaycan realist nəsr ənənəsinə yeni töhfələr verir, xarakter problemini həyatın reallığı ilə sıx bağlı şəkildə araşdıraraq, qəhrəmanların daxili aləminə, mənəvi və psixoloji mürəkkəbliyinə diqqəti çəkir. O, yaradıcılığında göstərir ki, insan taleyi və xarakter yalnız obrazların hərəkətlərində ifadə edilmir, həmçinin onların daxili düşüncəsi, mənəvi qarşıdurma və sosial-mədəni kontekstdə təsvir edilir.

Ədəbiyyat

1. Aslanoğlu Hacı, N. (2013, 19 sentyabr). İsi Məlikzadə. Azərbaycan ədəbiyyatı. https://kayzen.az/blog/az-proza/12329/isi-m%C9%99likzad%C9%99.html
2. Fərman, N. (2024, 4 may). Nisgilli gözlərin işığı. "*Ədəbiyyat qəzeti"*, (16).
3. Fərəcov, S. (2024, 27 dekabr). *Nəsrimizin parlaq imzalarından – İsi Məlikzadə.* https://www.medeniyyet.info.az/page/news/77447/Nesrimizin-parlaq-imzalarindan-%E2%80%93-Isi-Melikzade.html
4. İsmayılov, Y. (2007). *İsi Məlikzadə – söz sərrafı, nəsr ustası.*
5. Köçərli adına Respublika Uşaq Kitabxanası. (2024). *Həyat nəfəsli nəsr adamı – İsi Məlikzadə.*
6. Məlikzadə, İ. (2005*). Seçilmiş əsərləri.* "Şərq-Qərb".
7. Yusifli, V. (2013, 1 oktyabr). *İsi Məlikzadənin yaratdığı söz dünyası yaşayır.* "Ədalət".
8. Yusifli, V. (2021, 8 may). Azərbaycan povestində: İsi Məlikzadə səhifəsi. "*Ədəbiyyat qəzeti"*.
9. Yusifli, V. (2024, 3 may). Həyat kimi təbii və iddiasız… İsi Məlikzadə-90. "*525-ci qəzet"*, (77).
10. İsi Məlikzadə. https://az.wikipedia.org/wiki/%C4%B0si_M%C9%99likzad%C9%99